AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

Muzeyşünaslıq kafedrası

"Muzey arxivşünaslığı" fənni üzrə
Magistr pilləsi üçün

Proqram

Bakı – 2018

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

Muzeyşünaslıq kafedrası

"Muzey arxivşünaslığı" fənni üzrə

Magistr pilləsi üçün

Proqram

060301 Muzeyşünaslıq, arxiv və abidələrin qorunması

İxtisaslaşma: Arxiv işi və arxivşünaslıq

Fənnin kodu: MİF-B05-4

ADMİU-nun Elmi Şurasının 30 mart 2018-ci il tarixli 06 saylı protokolu ilə təsdiq olunmuşdur.

Bakı – 2018

Tərtib edənlər: **Elfira Hacıbaba qızı Məlikova**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
Aygün Rüstəm qızı Eyvazlı
Kulturologiya üzrə fəlsəfə doktoru,
baş müəllim

Elmi redaktor: **Yeganə Məhəmməd qızı Eyvazova**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Rəyçilər: **Sima Kərim qızı Babayeva**
Azərbaycan Dövlət Arxivinin direktor müavini,
filologiya üzrə fəlsəfə doktoru

İlhamə Hicran qızı Səfərova
Kulturologiya üzrə fəlsəfə doktoru, dosent

© ADMİU

İzahat vərəqi

Kitabxana və arxiv anlayışı cəmiyyətin formalaşdığı dövrdən mövcuddur. " Muzey arxivşünaslığı" fənni üzrə proqram "Muzeyşünaslıq", "Arxiv işi və arxivşünaslıq" ixtisasında magistr pilləsi üçün təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur.

Kitabxanalarda toplanan əlyazmaların arxiv materiallarına çevrilməsi faktoru məlumdur. Lakin burada müzakirə olunması mütləq olan əsas məqamlar var. Birinci, muzey üçün dəyərli eksponat olan əlyazmalar, yəni arxivlər: İkinci, muzey arxivi - yəni muzeydə aparılan sənədləşmələrin arxivdə qorunması.

İlkin dövlətlərin meydana çıxması, sənədlərə verilən dəyər, onların qorunmasına gətirib çıxardı. Nəticədə, muzeylərdə qorunacaq sənədlər müvafiq qaydada öz yerini tapdı. O, cümlədən tarix və bədii muzeylərdə.

Fondlarda qorunan əlyazmalar, yazılı mənbələr muzey arxivşünaslığının əsasını təşkil edir. Muzeyə təqdim edilən hər bir elmi mənbə qiymətli sayılır. Məhz fundamental əsərlər arxiv materiallarından götürülür.

Fənnin tədrisinə 6 kredit, ümumi 60 saat (30 saat mühazirə, 30 saat seminar) ayrılmışdır.

№	Mövzuların adı	Müh.	Sem.
1.	Fənnin predmeti və məqsədi	2	2
2.	Muzeylər tarixi dövrlərin yaratdığı fenomen kimi	2	2
3.	Muzey – tədqiqat müəssisələri kimi	2	2
4.	"Muzey arxivi" anlayışının təhlili	2	2
5.	Muzey arxivlərinin əsas iş istiqamətləri	2	2
6.	Muzey arxivləri – tədqiqat mənbəyi kimi	2	2
7.	Muzey fəaliyyətində arxivlərin qorunma qaydaları	2	2
8.	Muzey şöbələrindən arxivə təhvil verilən sənədlərin sıralanma qaydaları	2	2
9.	Muzey ekspozisiya şöbəsinin arxivə təqdim etdiyi sənədlər	2	2
10.	Muzeylərdə elmi-tədqiqat işi və arxiv sənədləri	2	2
11.	Muzey arxivləri – elmi əsərlərin mənbəyi kimi	2	2
12.	Tarix və arxivşünaslıq	2	2
13.	Muzeylər və arxivşünaslıq	2	2
14.	Muzeylərin təbliğində arxivşünaslığın rolu	2	2
15.	Müasir muzey arxivşünaslığı	2	2
	Cəmi: 60 saat	30	30

Mövzuların açılışı

Mövzu 1. Fənnin predmeti və məqsədi

"Muzey arxivşünaslığı" anlayışının təhlili. "Muzey arxivi" muzey fəaliyyətinin informasiya mənbəyi kimi. Muzey arxivinin strukturu, fəaliyyəti, xüsusiyyətləri. Sənədləşdirmə fəaliyyəti. Muzey və arxiv mədəniyyəti. Muzey arxivlərinin müasir tələblərə uyğunlaşdırılması yolları.

Mövzu 2. Muzeylər tarixi dövrlərin yaratdığı fenomen kimi

Müxtəlif dövrlərdə yaradılmış muzeylərin müasir muzeylərlə oxşar və fərqli cəhətləri. Dünya muzeylərinin arxivlərinin tədqiqi, təhlili və dəyərləndirilməsi. Muzey kolleksiyaları haqqında materialların arxivləşdirilməsi. Tarixin dərindən öyrənilməsində tədqiqatların rolu.

Mövzu 3. Muzey – tədqiqat müəssisələri kimi

Muzeylərin tədqiqat müəssisələrinə çevrilməsində kolleksiyalar haqqında verilən elmi sənədləşmənin əhəmiyyəti. Kolleksiyalar elmi mənbə kimi. Muzeylər tərəfindən hazırlanan elmi nəşrlərdə (kataloq, buklet, elmi toplu və s.) muzey arxivinin əvəzedilməz dəyəri.

Mövzu 4. "Muzey arxivi" anlayışının təhlili

"Muzey arxivi" muzey strukturunun əsas bölməsi kimi. "Muzey arxivi" nin spesifik xüsusiyyətləri. Muzey işinin əsas və mühüm sahəsi olan muzey şöbələri və fondlarından sənədlərin

sistemli şəkildə arxivə təhvil verilmə qaydaları. Sənədlərin arxivə verilmə müddətinin təyin edilmə tələbləri.

Mövzu 5. Muzey arxivlərinin əsas iş istiqamətləri

Arxiv şöbəsinin muzey sənədlərinə nəzarəti. Muzey arxivində toplanan materialların saxlanma üsulları. Sənədlərin təhvil və təslim qaydalarına riayət edilməsi. Təslim edilən sənədlərin ciddi yoxlanılaraq (eyni zamanda sayılaraq) təhvil alınması. Sənədlərin səliqəli şəkildə, xronoloji olaraq müvafiq üsulda saxlanılaraq qorunması və kataloqlaşdırılması.

Mövzu 6. Muzey arxivləri – tədqiqat mənbəyi kimi

Arxeoloji qazıntıların nəticələri: aktlar, elmi-nəticələr, planların arxivə təhvili və tədqiqi. Elmlər Akademiyası, Elmi-tədqiqat institutları, ali məktəblərin professor və müəllim heyətinin muzey arxivində tədqiqatları. Muzey arxivlərindən götürülən mənbələr ilkin informasiya məcmusu kimi.

Mövzu 7. Muzey fəaliyyətində arxivlərin qorunma qaydaları

Muzeyin arxiv şöbəsinin qorunma xüsusiyyətləri. Muzey arxivinin digər şöbələr ilə əlaqəli fəaliyyəti. Arxiv sənədlərinin düzgün tərtibi qaydaları.

Mövzu 8. Muzey şöbələrindən arxivə təhvil verilən sənədlərin sıralanma qaydaları

Muzey təcrübəsində istifadə edilən sənədlərin müvafiq qayda üzrə arxivə verilməsinin xüsusiyyətləri. Arxiv sənədlərinin mütəmadi olaraq yoxlanması və təmizlik işlərinin aparılması.

Mövzu 9. Muzey ekspozisiya şöbəsinin arxivə təqdim etdiyi sənədlər

Ekskursiyanın keçirilməsi üçün tərtib edilən mətnlər və ekspozisiya ilə əlaqədar rəsmiləşən sənədlərin arxivə təqdim edilmə qaydaları. Ekspozisiyada aparılan dəyişikliklər (eksponatın bərpaya göndərilməsi, ekspozisiyanın dəyişilmə müddəti çatdıqda fondlardan götürülən əsərlər.

Mövzu 10. Muzeylərdə elmi-tədqiqat işi və arxiv sənədləri

Muzey arxivində tədqiqatların tarixi başlanğıcı (Avropa və Rusiyada). Alim və muzeyin (tədqiqatçı) əlaqəli iş fəaliyyəti. Akademiya tərkibində fəaliyyət göstərən muzeylərin arxivi. Onların elmi potensialı və imkanları.

Mövzu 11. Muzey arxivləri – elmi əsərlərin mənbəyi kimi

Muzey yarandığı zamandan fəaliyyətə başlayan arxivlərin mənbəyi, muzeylərin elmi-maarif, elmi-tədqiqat işləri və s. sənədlərin arxivdə toplanmasının tarixi və elmi əhəmiyyəti.

Mövzu 12. Tarix və arxivşünaslıq

Arxiv tarix elminin əsas mənbəyi kimi. Arxivlərin tarixi əhəmiyyəti. Arxivlərin tarixə çevrilən ilkin mənbələri.

Mövzu 13. Muzeylər və arxivşünaslıq

Arxivlər muzey mənbələrinin qorunduğu şöbə kimi. Muzey və arxivşünaslığın oxşar və fərqli cəhətləri.

Mövzu 14. Muzeylərin təbliğində arxivşünaslığın rolu.

Tarixi qoruyan arxivlərin muzey fəaliyyətində rolu. Muzey eksponatının dərindən öyrənilməsində arxivşünaslığın dəyəri.

Mövzu 15. Müasir muzey arxivşünaslığı.

Müasir muzey fəaliyyətində arxiv işinə münasibətlərin yenidən qurulması yolları və istiqamətləri. Arxivlərin müasir texniki qurğular ilə təchizatı.

Ədəbiyyat siyahısı

Azərbaycan dilində

1. Muzeylər haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı, 2000.
2. Muzeyşünaslıq (dərslik), Bakı, "Mars-Print", 2002
3. E.Qurbanova, Dünya muzeyləri – Kataloq Metodik tövsiyə Bakı, 1995
4. Azərbaycan Respublikasının Qanunlar küllüyyatı.B.;Qanun,2001.
5. Muzey ekspozisiyasının layihələndirilməsinin bəzi məsələləri (Referat), B.1991.
6. Muzeyşünaslıq. Dərslik.B.2001.
7. Azərbaycan Milli Tarix muzeyi- 80, Bakı-2000-2014
8. E.Məlikova "Muzeylərdə elmi-tədqiqat işinin təşkili və metodikası" Dərslik Bakı – 2011
9. E.Məlikova "Bədii mədəniyyətin inkişafında incəsənət muzeylərinin rolu" Monoqrafiya Bakı -2014

Rus dilində

10. Музееведение. Учебник. М.; 2009.

11. Вопросы музейной работы. М., 1974

12. Игнатева В. И. Музееведение. Советские музеи. М., 1968.

13. Очерки истории музейного дела в СССР. М.,1963.

14. Фигол Д. И Методика научной пропаганды и культурно-массовой и научно-просветительной работы музеев. М., 1974.

15. История музейного дела в СССР. М., 1957. “Музей” – М, 1950 -80г

16. В.Гарник Очерки музейного дела Аз. ССР. Москва 1963

17. Очерки музейного дела в СССР. М.,1963

Muzey arxivşünaslığı fənni üzrə sərbəst mövzular

1. Muzey fəaliyyətində sənədləşmə qaydaları
2. Muzey şöbələri və sənədləşmə
3. Muzey elmi-tədqiqat şöbəsində sənədləşmə işləri
4. Muzey ekspozisiya şöbəsində sənədləşmə işləri
5. Muzeyin əsas fondunda sənədləşmə qaydaları
6. Muzeyin köməkçi fondunda sənədləşmə işləri
7. Muzeyin mübadilə fondunda sənədləşmə işləri
8. Muzey profillərinə əsasən şöbələrin adları və fəaliyyəti
9. Muzeylər haqqında qəbul edilən qanunların əhəmiyyəti
10. Yeni yaradılan muzeylərin təşkili qaydaları
11. Tarix elmi və arxivlər
12. Arxivlərin yaranma səbəbləri
13. Muzey sənədləri haqqında qanun
14. Arxivlərdə müasir qurğulardan istifadə qaydaları
15. Arxivlərin müasir qurğularla təchizatı
16. Muzeylərdə texniki sənət əsərlərinin qorunma qaydaları
17. Muzey kitabxanalarının fəaliyyət dairəsi
18. Tarixi mənbələrin muzey tədqiqatı
19. Tarixi mənbələr əsasında dərc olunan əsərlərin xüsusiyyətləri
20. Muzey fondları elmi mənbə kimi

Çapa imzalanmışdır: 10.05.2018
Kağız formatı: 60x84 1/16
ADMİU-nun mətbəəsində çap edilmişdir.
Ünvan: Bakı şəh., H.Zərdabi küç., 39 a
Tel: (012) 434 – 50 – 04